DOI:10.30546/gdu.2023.208-212

UOT:37.

# AİLƏ MÜNASİBƏTLƏRİNDƏ GENDER FƏRQLƏRİ

***Qasımova Ayşən Oruc qızı***
***Bakı Dövlət Universiteti Qazax filialı***
**aysenoruc1995@gmail.com**

**Xülasə:** *Gender stereotipləri insana ömrü boyu təsir göstərir. Ailə, uşaq bağçası, məktəb bütün bu sosiallaşma institutları ənənəvi gender stereotiplərini tətbiq edir. Bu səbəbdən, ailədə mövcud olan problemlərdən biri də qadınlar və kişilərin arasında gender bölgüsüdür ki, bu da fəaliyyətin və sosial rolların növlərinin effektiv bölgüsünü təşkil edir. Nikah qadın və kişinin könüllü razılığına əsaslanır: ər və arvad ailə münasibətlərində hüquqca tamamilə bərabərdirlər. Lakin ailədə baş verən müxtəlif sosial–demoqrafik və psixoloji proseslərlə əlaqədar atanın ailədə rolu tədricən dəyişməyə başlayır. Sosioloqlar, psixoloqlar və pedaqoqlar hesab edirlər ki, ailənin gələcək inkişafı atanın nüfuzunun artırılması ilə bilavasitə bağlıdır. Onlar haqlıdırlar. Ailədə atanın rolunun azalması nəinki uşaqların mənəvi və fiziki inkişafına mənfi təsir göstərir, həm də onların ailə həyatına hazırlanması prosesini çətinləşdirir. Ümumiyyətlə, gələcəkdə uğurlu ailənin təminatçısı ola biləcək kişi xüsusiyyətlərinə: üzərinə məsuliyyət götürə bilmək, özünə inam hissinin olması, ailədə münasibətləri tənzimləməyə qabillik, hər işə mühüm detalları ikinci dərəcəlilərdən ayıra bilmək və s. aid etmək olar. Ailə həyatında çox şey kişidən asılıdır. Müasir qadınlar nə qədər də güclü, "kişi" xasiyyətli olsalar da, onlardan hər biri kişidə özünə dayaq, müdafiə, stabillik axtarır. Qadının da möhkəm bünövrəli ailənin yaradılmasında böyük rolu vardır. Çünki ailədə psixoji iqlimin səviyyəsi məhz qadının sayəsində müəyyənləşir.*

**Açar sözlər:** ailə, cəmiyyət, gender fərqləri, sosial cins, feminlik, maskulinlik,
**Ключевые слова:** семья, общество, гендерные различия, социальный пол, женственность, мужественность,
**Key words:** family, society, gender differences, social gender, femininity, masculinity

Ailə-insanların qarşılıqlı fəaliyyətinin təkrarsız institutudur.Hər adamın öz həyat məkanı vardır – bu digər insanlarla – qohum, dost, qonşularla olan münasibətləridir. Onlardan ən yaxınları ilə münasibət artıq bilavasitə belə düzülür: «ev», «ailə» – bu, insanların yaşadıqları yeridir, yalnız burada onlar özünü yaxşı hiss edir. Ailə, şübhəsiz, müasir dövrdə, istər ayrılıqda götürülmüş şəxsiyyət, istərsə də bütövlükdə cəmiyyət üçün əhəmiyyəti artmaqda olan ümumbəşəri dəyər, mədəni irsin, əxlaqi norma və qaydalarının ötürücüsü rolunu oynayır. T.Louson və C.Herrod lüğət-sorğu kitabçasında ailəni belə müəyyənləşdirirlər: ailə – «ümumi qəbul edilmiş anlayışda qan qohumluğu və ya nigah əlaqələri ilə bizim bağlandığımız bütün adamlardır». V.R.Ratnikov «ailə» dedikdə «dəqiq müəyyən edilmiş maraqları və məqsədləri olan mini qrupu» başa düşür. Ailənin əsas məqsədi – qalib gəlmək, özünü qorumaq, ailə üzvlərinin əsas tələbatlarını ödəyə bilmək və nəslin davamını təmin etməkdir.

Ailədə hər bir insan təkrarsız və unikal xüsusiyyətlərə malikdir və bunlar onun şəxsiyyətinin fərdiyyətini təşkil edir. İnsanlar arasındakı əsas fərqlərin başlanğıcı kişilər və qadınlar arasındakı cinsi fərqlərdir. Kişi və qadın yer üzərində bəşəri həyatın ilkin başlanğıcıdır. Onların vəhdəti, birliyi həyatı yaradır. Bu iki fərqli başlanğıc bir çox cəhətdən bir-biri ilə ziddiyyət təşkil edir: istənilən eyni bir hadisəyə kişilər və qadınlar tamamilə fərqli baxır və fərqli qiymətləndirirlər. Bu fərqlər yalnız cinsin fərqləndirici xarici əlamətləridir. Lakin elm sübut edir ki, kişilərin və qadınların eyniadlı daxili orqanları da fərqli xüsusiyyətlərə malikdir və onlar maddələr mübadiləsinin intensivliyində, tənəffüsün və ürək döyüntülərinin tezliyində, qanın tərkibində və s. də özünü göstərir. Kişilər və qadınlar

DOI:10.30546/gdu.2023.208-212

arasındakı fərqlərə həsr olunmuş çoxsaylı müqayisəli elmi tədqiqatlar bu iki fərqli cins arasındakı fərqlərin qavrayış, məntiq və intuisiyasında, ətrafdakı adamlarla qarşılıqlı münasibətlərində, maraq, qiymətləndirici mühakimələrində, fiziki parametrlərində, təfəkkür və təxəyyülündə, fəallıq və ünsiyyət tələbatında, xarakter, qabiliyyət, temperament xüsusiyyətlərində və bir çox digər sahələrində də mövcudluğunu təsdiq edir. Genderin əsasında dayanan ideya "“kişi” və “qadın” arasındakı fiziki və bioloji fərqlər deyil, cəmiyyətin bu fərqliliklərə verdiyi mədəni və sosial əhəmiyyət" hesab edilir.“Gender” termini hərfi mənada ingilis dilində cins bildirən sözdür: qadın və ya kişi. İlk dəfə bu söz qrammatik kateqoriyadan kənar psixoloq Robert Stollerin 1968-ci ildə “Cins və Gender” (“Sex and Gender”) adlı tədqiqat işində işlənmişdir. Başlıqdakı bu iki sözün bölünməsindəki məqsəd “kişilik” və “qadınlıq” anlayışlarını sosiomədəni və bioloji cəhətdən ayırmaq idi. Beləliklə, bu termin cinslər arasındakı bioloji fərqlərdən başqa, eyni zamanda onların sosial rollarının, emosional və davranış xarakteristikalarını fərqləndirir: bioloji cins və gender, yəni, “sosial cins”.

Gender tədqiqatlarının predmeti cəmiyyətdə mövcud olan kişi və qadınlar arasındakı fərqliliklər barədə təsəvvürlərdir. Daha dəqiq desək, kişilər və qadınların xüsusiyyətləri və onların fərqli cəhətləridir. Bu xüsusiyyətlər "maskulinlik" və "feminlik" olaraq fərqləndirilir. 1974-cü ildə Amerikan psixoloqu Sandra Bem maskulinizm və feminizm probleminə yeni konsepsiyadan yanaşmağa təşəbbüs göstərmişdir. Sandra Bem əvvəlki tədqiqatçılardan fərqli olaraq femin və maskulin xüsusiyyətlərin müəyyən edilməsini cəmiyyətin öhdəsinə buraxmışdır. Çoxsaylı oğlan və qız tələbələrlə apardığı tədqiqatlar vasitəsilə o, 400 insani keyfiyyəti qiymətləndirmək təklifi ilə çıxış etmiş, müasir kişiyə məxsus 20, qadına məxsus 20, hər iki cinsə məxsus 20 neytral keyfiyyətləri ayırd etmişdir. Öz tədqiqatları vasitəsilə Sandra Bem maskulinist (kişiyə məxsus) keyfiyyətlərə özünəinam hissini, öz mövqeyini müdafiə etmək meylini, riskə meylliliyi, problemi təxirə salmadan tez həll etmə xüsusiyyətini, hakimiyyətə və liderliyə meyilliyi, kişiliyi, başqasını öz arxasınca aparmaq qabiliyyətini, qətiyyətliliyi, fərdiyətçiliyi, yarışa qoşulma riskini, ambisiyalılığı (özündən razılılığı), feminist xüsusiyyətləri isə güzəştə getməni, həyatsevərliyi, utancaqlığı, zərifliyi, sədaqətliyi, qadınlılığı, dərdə şərik olmanı, qayğıkeşliyi, asta səslə danışmanı, istiqanlılığı, yumşaq, etibarlı, infantil davranışı, uşaqları sevməni, sakitliyi, söyüşdən uzaq olmanı və s. aid etmişdir. Müasir dövrdə gender sxemində bu xüsusiyyətlərin sırası daha da genişlənmiş, onların sırasına hər iki cinsə aid olan bəzi ortaq xüsusiyyətlər də aid edilmişdir. Bir çox elmi tədqiqatlarda artıq sübut olunmuşdur ki, kişi və qadınlar arasında mövcud olan həqiqi fərqlər 5%-dən çox deyil və ciddi əhəmiyyət kəsb etmir. Öz-özlüyündə kişi və qadının psixoloji xarakteristikasında oxşar cəhətlər fərqlərdən daha çoxdur. 1970-ci illərin ortalarından başlayaraq dünyada cinsi fərqlər probleminə aid hər il 1,5 mindən artıq əsər çap olunmuşdur. Bu tədqiqatlar vasitəsilə müəlliflər öz səylərini qadın və kişilərin cinsi fərqlərini dərindən araşdıraraq “inventarlaşdırılmasına”və bu fərqlərin mənşəyinin müəyyənləşdirilməsinə istiqamətləndirmişlər. Cinsi fərqlər probleminin elmi cəhətdən tədqiqinə həsr olunmuş ilk sanballı əsərlərdən biri 1974-cü ildə ABŞ tədqiqatçıları E. Makkobi və K.Ceklinin “Cinsi fərqlərin psixologiyası” adlı monoqrafiyasıdır. Bu əsər həmin dövrədək cinsi fərqlər haqqında yazılmış əsərlərin tənqidi təhlilinə həsr olunmuşdur. E.Makkobi və K.Cekli təhlil əsasında cinsi fərqləri üç qrupa ayırmışlar:

Həqiqi fərqlər:oğlanlar (kişilər daha aqressivdir, riyazi və fəza əməliyyatlarını qavramaq sahəsində daha uğurlu nəticələr əldə etməyə qadirdirlər. Qızlarda (qadınlarda) isə linqvistik, nitq qabiliyyətləri daha yaxşı inkişaf etmişdir. Kişilərdə aqressivlik adətən asosial xarakter daşıdığı halda, qadınlarda bu sözlü etirazlar, küskünlüklə müşayiət olunur.

DOI:10.30546/gdu.2023.208-212

Şübhəli fərqlər:oğlanlarda və qızlarda sözəbaxımlılıq, qayğıkeşlik, qorxu və həyəcanlanma, yarışmaya meyillilik, taktil həssaslıq, ümumi fəallıq sahəsində göstəricilərdə oxşarlıqlar müşahidə edildiyindən qeyd olunan əlamətlər üzrə kəskin fərqləri müəyyənləşdirmək mümkün olmamışdır.

Təsdiq edilmiş fərqlər:qızların (qadınların) inkişafında mühitin təsiri daha üstün rola malikdir. Onlarda təlqinə qapılma hissi güclüdür, standart tipli məsələlərin həllində qızlar yüksək nəticələr əldə etsələr də, onlarda uğur əldəetmə tələbatı və özünəhörmət hissi zəif inkişaf etmişdir.

ABŞ psixoloqu K.Xorni qadınlarla kişilər arasındakı fərqləri sosiomədəni təsir kontekstindən izah edirdi. Onun iddiasına görə, qadınlar kişilərlə müqayisədə bütün hallarda daha çox natamamlıq hissi keçirirlər. Çünki onların həyatı kişilərdən iqtisadi, siyasi və psixoseksual baxımdan asılıdır. Tarixən qadınlara ikinci dərəcəli varlıqlar kimi yanaşıldığından onlar kişilərin üstünlüyünü qəbul etməli olmuşlar.

Cəmiyyətdəki demokratik dəyişikliklər gender problemlərini yenidən işıqlandırmaqla qadınların cəmiyyətdə yeni maarifləndirici statusunun formalaşmasına şərait yaradırdı. Eyni zamanda, yeni münasibətlər patriarxal təsəvvür və stereotiplərlə səsləşərək, cəmiyyətin bu və ya digər sferalarında qadının iştirakının sərhədləri haqqında təsəvvürlər formalaşdırdı.

Hesab edirəm ki, cəmiyyətin mədəni səviyyəsi onun qadına olan münasibətilə özünü göstərir. Qadınla xoşbəxt olmanın sirri onunla səmimiliyin mənəvi balansını qorumaqdır. Qadına və uşağa olan münasibət kişinin insanlara qarşı nə dərəcədə düzgün və mərhəmətli ola biləcəyinin qüsursuz mənəvi ölçüsüdür.

Azərbaycan ailələrində kişi adətən ailənin başçısı hesab olunur. Yalnız istisna hallarda ailədə ər–arvad arasında qarşılıqlı münasibətlərin ahəngi pozulduğu təqdirdə onlardan hər biri lider olmağa can atır. Uşaqların tərbiyəsində ana ilə yanaşı atanın da xüsusi rolu vardır.Oğlan uşaqları üçün ata ağıl, iradə qüvvəsi, kişi əzəməti nümunəsidir. Ata oğlunu tərbiyə etməklə, həm də özünü tərbiyə edir və dəyişir. Öz oğlunun simasında gələcək kişinin formalaşmasını görmək və ona bu sahədə ən yaxşı davranış nümunəsi göstərmək o deməkdir ki, ata özünün kişi ləyaqətini qoruyur, daha da inkişaf etdirir.Oğlan uşaqları özlərini ata ilə eyniləşdirirlər, onun bir çox hərəkətlərini təqlid yolu ilə mənimsəyirlər. Bu mənada bir ailədə oğlan uşaqlarının tərbiyəsində atanın xüsusi məsuliyyət daşımasından danışırıq. Qızların mənəvi inkişafını da atasız təsəvvürə gətirmək olmaz. Oğlan uşağının həyatında ana nə qədər böyük rol oynayırsa, qız uşağının həyatında da ata bir o qədər böyük rol oynayır.Psixoloqlar əsaslı sürətdə müəyyənləşdirmişdilər ki, atasız böyüyən qız uşaqlarında kişi haqqında dolğun təsəvvürlər formalaşmır. Bu əsasda da onun gələcəkdə öz həyat yoldaşı ilə münasibətlərində xeyli çətinliklər qarşıya çıxacaq. Biz bura başqa faktları da əlavə edə bilərik. Lakin onların hamısını bir məna birləşdirir: ailəin mənəvi inkişafı, həm ata, həm də ana ilə bilavasitə bağlıdır. Onlar ailə həyatının vəhdət təşkil edən qoşa qanadıdır. Bu cəhəti düzgün başa düşən ana həmişə ailədə atanın hörmət və nüfuzunun qorunub saxlanmasına xüsusi diqqət yetirir. “Ata yatıb səs salma”, “Atan gəlir özünü yaxşı apar” və s. ifadələrə adi iradlar kimi baxmamalıdır. Onları yüksək qiymətləndirməlidir. Bir mühüm cəhəti də xüsusi qeyd etmək istərdik ki, ana atanın hörmət və nüfuzunu möhkəmləndirərkən, həm də öz nüfuz və hörmətini artırır. Uşaqların yanında atanı təhqir edən ana, şübhəsiz ki, özünü də hörmətdən salır. Bu ataya da aiddir. Ailədə ananın hörmət və nüfuzunun möhkəmləndirilməsi onun başlıca qayəsi olmalıdır. Müasir dövrdə atanın rolu köklü sürətdə dəyişmişdir. Bir çox ailələrdə atanın nüfuzu xeyli azalmışdır. Ataların az bir qismi uşaqları ilə gəzintidə, idman oyunlarının təşkilində iştirak edir, tapşırıqlarını yoxlayır, müəllimlərlə əlaqə saxlayır, uşaqların tərbiyəsində anaya kömək edir. Uşaqlar çox vaxt peşə seçəndə ata ilə deyil, məhz ana ilə məsləhətləşirlər. Ailə tərbiyəsi bir növ qadın işinə çevrilmişdir. Uşaqların təhsili və tərbiyəsi

DOI:10.30546/gdu.2023.208-212

məsələlərini daha çox qadınlar həll edir. Cinslər arasında, ailədə ər və arvad münasibətləri mahiyyət etibarilə cəmiyyətin iqtisadi quruluşu ilə müəyyən olunur. Matriarxatın və partiarxatın öz iqtisadi əsasları vardır. Lakin hər iki halda ailə avtoritar xarakter daşıyır, kor–koranə tabeçilik prinsipinə əsaslanırdı. Bir cinsin başqa cins üzərində hakimiyyəti bütün ailə həyatına nüfuz etmişdir.

Ailədə qender münaqişələrinin həll edilməsi və qarşısının alınması bu münaqişələrin tənzim və idarə edilməsi üzrə fəaliyyətin əsas növləri kimi nəzərdən keçirmək lazımdır. Aliə münaqişələrinin qarşısının alınmasının əsas yolları münaqişəin qarşıdurmanın potensial subyektlərindən asılıdır. Ədəbiyyatda konkret hər hadisə üçün ayrıca məsləhətlər verilir. Ailənin inkişafının sosial-psixoloji qanunauyğunluqlarından yaranan ailə münaqişələrinin ən ümumi yollarının üzərində dayanaq: belə yollar aşağıdakılardır: psixoloji-pedaqoji mədəniyyətin, ailə münasibətlərinin əsasları üzrə biliklərinin formalaşması; uşaqşların fərdi-psixoloji və yaş xüsusiyyətləri, habelə emosional vəziyyətləri nəzərə almaqla, onların tərbiyə edilməsi; tam hüquqlu əsaslarla ailənin təşkili, ailə qanun qaydaları və ailə ənənələrinin formalaşması, bir-biri ilə davranış mədəniyyətinin formalaşması; Ailə münaqişəninin həll edilməsi - mübahisəli məsələlər üzrə razılığın (konsensusun) əldə edilməsi üçün ən əlverişli variantıdır. Lakin münaqişələrin qeyri-konstruktiv həll edilməsinin (uşaqların ailədən getməsi, valideynlik hüququndan məhrum edilməsi və s.) başqa yolları da vardır. Ər-arvad üçün münaqişəin həll edilməsinin xüsusi forması boşanmadır. Bir çoxları üçün boşanma yığılıb qalmış problemlərdən, fikir ayrılığı və tərəflərin biri-birini başa düşməməsindən azad olmaq deməkdir. Lakin boşanma çox vaxt tərəflərin yalnız birinin maraqlarını yerinə yetirir və digər tərəfdə ağır sinir-psixi təəssüratı yaradır.

Bundan əlavə, boşanma nəticəsində cəmiyyət natamam ailəni əldə edir, bu isə öz növbəsində uşaqlarda cinayətkarlıq, narkomaniya və deviant davranışın formalaşmasına səbəb ola bilər. Uzun yaranma tarixi olan boşanma problemi bu gün cəmiyyət üçün aktualdır. Bu problemin tədqiqatçısı tanınmış Amerika sosioloqu P.Boxannanın fikrincə bu mürəkkəb sosial fenomen olmaqla, eyni zamanda mürəkkəb fərdi dərddir. Buna, başlanğıcı ailədə əmələ gəlmiş münaqişə şəraitində yaranan və sonu nigahın pozulması ilə başa çatan proses olduğuna kimi baxmaq lazımdır.

Ailədə qender münasibətlərini tənzim etmək üçün ilk növbədə özünün xasiyyəti və temperamenti idarə etməyi, güzəştə getməyi, ailənin hər üzvünün azadlığını, hüququnu pozmamağı bacarmaq lazımdır. Şəxsiyyətin özünün xasiyyət və temperamentini müvəffəqiyyətlə idarə etməsindən onun inkişafı, bir pillədən digərinə qalxması, daha yüksək keyfiyyətli səviyyəyə çatması asılıdır. Rus psixoloqu D.A.Leontyev «Şəxsiyyətin psixologiyası» oçerkində yazır: «İnkişaf etmiş yetkin şəxsiyyət öz xasiyyətini idarə edə bilir və özünün ifadə hallarını nəzarət atında saxlamağa qadirdir».

### *Ədəbiyyat*

1. Əlizadə, A.N.Abbasov. Ailə. Bakı, 1989.
2. N.Çələbiyev. Ailə psixologiyası. Bakı, 2015.
3. Həsənova M. Azərbaycanda ailə: hüquqi və demoqrafik aspektləri. – B., 2004
4. Семья в современном европейском обществе. – М., 1996
5. Azərbaycan Respublikasının Konstitusiyası. – B., 2003
6. Семья как социальный институт. Гендер и общество / Под общ.ред. А.А.Широбоковой, С.В.Ураловой. – Иркутск, 2001
7. Crompton R. Discussion and Conclusions//Restructuring Gender Relations and Employment. The Decline of the Male Breadwinner. Oxford University Press, 1999

DOI:10.30546/gdu.2023.208-212

## ГЕНДЕРНЫЕ РАЗЛИЧИЯ В СЕМЕЙНЫХ ОТНОШЕНИЯХ

***Гасымова Айшен Орудж кызы***

***Резюме***

Гендерные стереотипы влияют на человека на протяжении всей его жизни. Семья, детский сад, школа – все эти институты социализации применяют традиционные гендерные стереотипы. По этой причине одной из проблем, существующих в семье, является гендерное разделение между женщинами и мужчинами, которое представляет собой эффективное разделение деятельности и типов социальных ролей. Брак основывается на добровольном согласии мужчины и женщины: муж и жена юридически равны в семейных отношениях. Однако в силу различных социально-демографических и психологических процессов, происходящих в семье, роль отца в семье начинает постепенно меняться. Социологи, психологи и педагоги считают, что дальнейшее развитие семьи напрямую связано с повышением авторитета отца. Они правы. Снижение роли отца в семье не только негативно сказывается на нравственном и физическом развитии детей, но и усложняет процесс их подготовки к семейной жизни. В целом к мужским характеристикам, которые могут стать в будущем кормильцем успешной семьи, относятся: способность брать на себя ответственность, уверенность в себе, умение регулировать отношения в семье, умение отделять важные детали от второстепенных и т. д. можно отнести. В семейной жизни многое зависит от мужчины. Какой бы сильной, «мужской» натурой ни были современные женщины, каждая из них ищет в мужчине опору, защиту и стабильность. Женщина также играет большую роль в создании семьи с прочным фундаментом. Потому что уровень психологического климата в семье определяется именно благодаря женщине

## GENDER DİFFERENCES İN FAMİLY RELATİONSHİPS

***Gasimova Ayshan Oruj gizi***

***Summary***

Gender stereotypes affect a person throughout his life. Family, kindergarten, school - all these institutions of socialization apply traditional gender stereotypes. For this reason, one of the problems that exist in the family is the gender division between women and men, which constitutes an effective division of activities and types of social roles. Marriage is based on the voluntary consent of a man and a woman: husband and wife are legally equal in family relations." However, due to various socio-demographic and psychological processes taking place in the family, the role of the father in the family begins to change gradually. Sociologists, psychologists and educators believe that the future development of the family is directly related to increasing the authority of the father. They are right. The reduction of the father's role in the family not only negatively affects the moral and physical development of children, but also complicates the process of preparing them for family life. In general, male characteristics that can be the provider of a successful family in the future include: the ability to take responsibility, self-confidence, the ability to regulate relationships in the family, the ability to separate important details from secondary ones, etc. can be attributed. In family life, a lot depends on the man. No matter how strong, "masculine" nature modern women are, each of them seeks support, protection, and stability in a man. A woman also has a great role in creating a family with a strong foundation. Because the level of psychological climate in the family is determined precisely thanks to the woman.

***Rəyçi: Dosent Cəfər İbrahimov***
***Təhsilin pedaqogikası və metodikası kafedrasının 5 iyul 2023-cü il tarixli iclsın 14 saylı protokolu***
***Daxil olma tarixi 17 iyul 2023-cü il***